## **Bu meydan**

Bu meydan,
bu meydan,
qızıl-qırmızı meydan-
qardaşlarımızın qanından!
Bu meydan,
qara meydan,
qara, qapqara meydan-
qardaşlarımızın qara saçı
burda yerə endiyindən,
burda yerə dəydiyindən
burda...
burda...
Burda onlar
əbədiyyat qapısını döydüyündən
köçdülər nəsillərin yaddaşında yaşamağa,
qardaşlarımız!
Yaddaşlarda köz kimi yaşayanlar
yandırdılar bu meydanda...
bu meydanda yanırdılar,
yandılar,
yandırdılar Azadlıq məşəlini.
Qızıl-qırmızı meydan!..

Onlar bu meydanda azad idilər
bir bayrağın altında
günəş qədər isti
və aydın amallarıyla.
Günəş qədər körpə
və gənc canlarıyla,
Damarlarını yandıran
Qaynar-qaynar qanlarıyla,
Gözlərini böyütmüş həyəcanlarıyla:
Sonu görünməyən bir yola cııxb,
sıx cərgələriylə
çağırışları, çığırışları,
nəğmələriylə
onlar bu meydanda azad idilər.
Onlar bu meydanda azad idilər
Gecə qaranlığında,

tonqalların başında,
bir boyda,
bir biçimdə -
170 yaşında.
onlar bu meydanda azad idilər.
Onlar bu meydanda azad idilər
lülələrin önündə,
tankların qabağında
mətin duruşlarıyla –
silahsız, əliyalın,
əl belə qaldırmadan
tiranlıqlara qarşı bütün vuruşlarıyla,
qaya əzəmətiylə,
dişlə-dırnaqla söküb içlərindən atdığı
ölüm əziyyətiylə
onlar bu meydanda azad idilər!...

Bu dərd ağlamaqla sovuşan deyil,
söyüd saçlım, ağlama!
Ağlama, anam-bacım,
ağlama için-için,
ağ göyərçin, ağlama!...
And iç, and iç ki!...
ürəyindəki dərdə,
bağrındakı yaraya,
səni doğraya-doğraya
keçib gedən ağrıya and iç!
And iç, and iç bu yaraya!

And iç ki,
oğul böyüdəcəksən,
oğul yollayacaqsan
Sən o Böyük Davaya!

Ulu bir meydan içində
Bəzən bircə an içində,
Baş-gözümüz qan içində
Özümüzə qayıdırıq.

Soy kökümüz harda qalıb;
Arada uçurum ucalıb.
Şəhidlərdən körpü salıb,
Özümüzə qayıdırıq.

Tarixin sərt yoxuşunda –
Bu qərənfil yağışında,
Şəhidlərin işığında
Özümüzə qayıdırıq.

Ruhumuzun cecəsilə,
Qanlı yanvar gecəsiylə,
O şəhidlər küçəsiylə
Özümüzə qayıdırıq...

Nurəli T. Bu meydan : şeir // Ulduz. - 1991. - № 1. – S. 39.